### QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2016-cı İLİN MAY AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBULLARIN VƏ GÖRÜŞLƏRİN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Əmirvan kəndi | 03.05.2016 | Kənd məktəbi, saat $15^{00}$ |
| Hacıalılı kəndi | 10.05.2016 | Kənd məktəbi, saat $15^{00}$ |
| Bəyli kəndi | 17.05.2016 | İcra nümayəndəliyi, saat $11^{00}$ |
| Şamlı kəndi | 24.05.2016 | İcra nümayəndəliyi, saat $11^{00}$ |
| Kiçik Əmili kəndi | 31.05.2016 | Kənd məktəbi, saat $15^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə, mədəniyyət və turizm şöbələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

# Beynəlxalq Yer Kürəsi Günü qeyd olundu

Beynəlxalq Yer Kürəsi Günü əvvəllər «Ağac Günü» adı ilə qeyd olunmuşdur. Bayramın keçirilmə tarixi XIX əsrin 70-ci illərinə təsadüf edir. Amerika Birləşmiş Ştatlarının Nevraska ştatının sakini ştatın yaşıllaşdırılmasına başlamaq üçün əhaliyə müraciət etmişdir. Onun özü və ailəsi ilk olaraq ağac əkməyə başlamışdır.

Yer Kürəsi Günü ilk dəfə 1970-ci il aprelin 22-də qeyd olundu. 20 milyona yaxın amerikalı müxtəlif tədbirlərdə iştirak edərək hökuməti ekoloji problemləri həll etməyə çağırdı. Həmin vaxtdan etibarən başlanan kütləvi ekoloji hərəkat təbii ehtiyatların qorunmasına və sənaye istehsalı üzərində ekoloji nəzarətə istiqamətləndi.

22 aprel—Beynəlxalq Yer Günü ilə əlaqədar olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 11 saylı Ərazi Ekologiya və Təbii Sərvətlər Şöbəsi də fəaiyyət göstərdiyi inzibati ərazi üzrə müxtəlif ekoloji tədbirlər həyata keçirmiş, ətraf mühitin mühafizəsi ilə bağlı ictimaiyyət arasında təbliğat xarakterli işlər aparmışdır. Şöbənin əməkdaşları «Yer Kürəsi Günü» ərəfəsində müxtəlif ekoloji tədbirlərdə iştirak etməklə bərabər, həm də müxtəlif aksiyalarda iştirak etməklə ağaclar əkir, yaşıllıqlara qulluq edir və əhalini ətraf mühitin mühafizəsi sahəsində daha fəal olmağa çağırır.

**Y. QULİYEV,**
**11 saylı ƏETSŞ-nin sektor müdiri.**

# Yaralı əsgərlərin ailələrinə baş çəkildi

Aprel ayının 1-dən 5-nə qədər və sonrakı günlərdə Ermənistan Azərbaycan qoşunlarının təmas xəttində baş verən hadisələr cəbhədə hərbi xidmətdə olan qəbələli əsgərlərdən də yan keçməmişdir. Qəbələli zabitlərdən biri həlak olmuş, əsgərlərdən bir neçəsi yaralanmış, müalicə üçün müxtəlif qospitallara düşmüşlər.

Bu günlərdə rayon icra hakimiyyətinin məsul işçisi Absalam Hüseynov, rayon ağsaqqallar şurasının sədri Nazim Mustafayev, Qızıl Aypara Cəmiyyəti Qəbələ rayon bölməsinin sədri Sədaqət Bayramova, uşaq və ailələrə dəstək mərkəzinin direktoru Rəna Mahmudova yaralanan əsgər ailələrinə baş çəkmişlər. Rayon ictimaiyyətinin nümayəndələri Nohurqışlaq kəndindən olan yaralı əsgər Allahverdiyev



Arzu Aydın oğlunun, Tüntül kəndindən olan Baxışov Şirvan Mamed oğlunun, İmamlı kəndindən olan Hacıyev Anar Natiq oğlunun evlərinə getmiş, əsgərlərin valideynləri, yaxınları ilə görüşmüş, yaralılarımızın tezliklə şəfa tapıb hərbi xidmətlərini davam etdirməyi və sağ-salamat evlərinə, doğma yurda qayıtmalarını arzulamışlar. Görüş zamanı əsgər ailələrinə yardımlar da edilmişdir.

Redaksiyamızın Qızıl Aypara Cəmiyyəti Qəbələ rayon bölməsinin sədri Sədaqət Bayramovadan aldığımız məlumata görə yaxın günlərdə rayonumuzdakı digər yaralı əsgərlərin ailələrinə də baş çəkiləcəkdir.

**«Qəbələ».**

# Abidələrin Mühafizəsi Günü

Azərbaycan ərazisi tarixi abidələrlə zəngin bir diyardır. Tarixi abidələrin zənginliyi də onun qədim tarixə, ulu keçmişə malik olmasından irəli gəlir. Hər bir dövrün canlı şahidi olan abidələrimiz tariximizin böyük bir hissəsidir. Lakin bu gün yaşı min illərlə olan tarixi abidələrimiz var ki, düşmən tapdağı altında inləyir, darmadağın olaraq tariximizdən silinmək təhlükəsi qarşısındadır. Azərbaycanın Azıx mağarası, Damcılı, Tağlar və s. bu kimi abidələri neçə-neçə minillikləri arxada qoymuşdur. Bu qədim abidələrimiz Azərbaycan torpağında ta qədimdən yaşayışımızın təsdiqi və tarixidir. Bu gün bu abidələrimiz dövlət tərəfindən mühafizə olunmaqla yanaşı tarixi baxımdan araşdırılır. Aprelih 18-də Qəbələ rayon tarix-diyarşünaslıq muzeyində bu əlamətdar tarixi günlə əlaqədar dəyirmi masa təşkil olunmuşdur. Muzeyin əməkdaşı Tahirə Şəfiyeva "Azərbaycan tarixi abidələr diyarıdır" mövzusunda mühazirə söyləmişdir.

**«Qəbələ».**

# 2016-cı ilin birinci rübündə rayonun sosial-iqtisadi göstəriciləri

2016-cı ilin birinci rübü ərzində ölkəmizdə olduğu kimi Qəbələ rayonunda da iqtisadi və sosial sahədə işlər rəvan getmiş, nəzərə çarpacaq uğurlar əldə edilmişdir. Belə ki, 2016-cı ilin birinci rübündə rayonda 29468 min manatlıq məhsul istehsal olunmuş, xidmətlər göstərilmişdir.

Bu rəqəmin 70.3 faizi istehsal, 29.7 faizi isə xidmət sahələrinin payına düşür. Həmin dövrdə kənd təsərrüfatı və balıqçılıq sahəsində 9854 min manatlıq və ya ümumi məhsulun 33,4 faizi qədər, ticarət və xidmət sahəsində 7.487 min manatlıq (25,4 faiz), tikintidə 5.158 min manatlıq (17,5 faiz), sənayedə 5.693 min manatlıq (19,3 faiz), nəqliyyat və anbar təsərrüfatı sahəsində 1.033 min manatlıq (3,5 faiz), informasiya və rabitədə 243 min manatlıq (0,9 faiz) məhsul buraxılmış, xidmət göstərilmişdir.

Rayonumuzun iqtisadiyyatında kənd təsərrüfatı sahəsi xüsusi çəkiyə malikdir ki, burada da taxılçılıq, meyvəçilik və heyvandarlıq aparıcı yer tutur. Bununla yanaşı, təsərrüfatlarda bostan məhsulları, tərəvəz, üzüm, kartof da yetişdirilir. Rayonda keçən ilin payızında 22.462 hektar sahədə payızlıq taxıl əkilmişdir. Əkilmiş taxıl sahələrinə payız-qış fəsillərində yüksək keyfiyyətli aqrotexniki qulluq göstərilmişdir.

2016-ci ilin birinci rübündə rayonun kənd təsərrüfatı əməkçiləri mal-qaranın qışdan sağ-salamat çıxarılması, əkilmiş payızlıq bitkilərin becərilməsi və yazlıq bitkilərin əkinlərinin aparılması üçün aqrotexniki tədbirlərin aparılmasında öz daxili imkanlarını tam səfərbərliyə almışlar.

Rayonun sənayesi əsasən meyvə şirələrinin istehsalı, elektrik enerjisi, qaz və buxarın istehsalı, bölüşdürülməsi və suyun yığılması və paylanması sahələri ilə təmsil olunmuşdur. 2016-cı ilin yanvar-mart aylarında sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 5.693 min manat təşkil etmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 18,7 faiz çoxdur.

2016-cı ilin birinci rübündə rayonda əsas kapitala yönəldilmiş investisiyanın həcmi 6.196,3 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 5.158 min manat təşkil etmişdir. Rayonda turizmin inkişafına diqqət durmadan artır. 2003-cü ildə rayonda cəmi 3 turizm obyekti vardısa, indi bunların sayı 5 dəfə artaraq 15-ə çatdırılmışdır. Hazırda rayonda dünya standartlarına cavab verən bir sıra turizm mərkəzlərində tikinti işləri sürətlə davam edir. 2016-cı ilin birinci rübündə rayonda avtomobil nəqliyyatı ilə 268 min ton, əvvəlki illə müqayisədə 13 min ton və ya 5 faiz çox yük daşınmışdır.

Qeyd olunan dövrdə rayonda 1.894 min sərnişin daşınmışdır ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 42 min sərnişin və ya 2,2 faiz çoxdur. 2016-cı ilin birinci rübündə əhaliyə 243 min manatlıq rabitə xidməti göstərilmişdir

Birinci rüb ərzində rayonun istehlak bazarında əhaliyə 8.341 min manatlıq pullu xidmət göstərilmişdir. Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmi 36.642 min manat təşkil etmiş, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 22,1 faiz və ya 6.634 min manat çoxdur.

2016-cı ilin birinci rübündə rayon iqtisadiyyatında muzdla çalışanların orta aylıq əmək haqqı 251 manat təşkil etmişdir. Yüksək orta aylıq əmək haqqı rayon iqtisadiyyatının elektrik enerjisi və qaz istismarında, rabitə, maliyyə dövlət idarəetməsi, müdafiə və təhsil sahəsində çalışanlarda olmuşdur.

1 aprel vəziyyətinə Qəbələ rayonunda məşğul əhalinin sayı 48715 nəfər olmuşdur ki, onlardan 11193 nəfər muzdla işləyənlərdir. 2003-cü ilin oktyabr ayının 1-dən 2016-cı ilin aprel ayının 1-dək rayonda 13.996 yeni iş yeri açılmışdır ki, onun da 11.948-i daimi iş yerləridir.

1 aprel 2016-cı ilə rayon əhalinin sayı 102.979 nəfər olmuşdur.

Həmişə olduğu kimi 2016-cı ilin birinci rübündə əhalinin sosial müdafiəsi diqqət mərkəzində olmuş, rayon əhalisi sosial müdafiənin qanunla müəyyən edilmiş bütün formalarından müvafiq şəkildə faydalanmışdır.

**QƏBƏLƏ RAYON STATİSTİKA İDARƏSİ.**